SEVİNC SABİRQIZI
(KAMALOVA)

# YOLÇULUQ BİTMƏZ

*ŞEİRLƏR*

BAKI-2026

# İKİNCİ UĞURLU ADDIM

Adətən, hər bir başlanğıcda atılan ilk addım çətin olur. Gələcəkdə görüləsi işlər o ilk addımdan çox asılıdır – büdrədin, yıxıldın, yaxud səhv addım atdınsa, sonra bu uğursuzluğun yaratdığı çətinlikləri aradan qaldırmaq üçün əlavə olaraq xeyli fiziki və zehni güc sərf etmək məcburiyyətində qalırsan. Yaradıcı insanlarda isə bu hal daha ağrılıdır.

Sevinc Sabirqızının ilk addımı – "Bir kəndim vardı mənim..." şeirlər kitabı – uğurlu oldu, çapdan çıxan kimi xeyli oxucu qazandı, sevilə-sevilə oxundu. Sözsüz ki, bu, müəllifin yaradıcılığına müsbət mənada böyük təsir göstərməmiş deyil.

İlk uğurlu addımın sevincindən arxayınlaşmayan yaradıcı adamların daxili aləmi də yenilənir, daha məsuliyyətli, daha ilhamlı olurlar. Sevinc xanımın ikinci kitabını oxuduqca bunu yəqin edirsən. "Yolçuluq bitməz" adlı bu şeirlər toplusundakı şeirlərdə də eyni ruh, eyni nəfəs, eyni səmimiyyət var. Yəqin ki, əksəriyyəti daha çox fikir və hiss süzgəcindən keçirildikdən, bir daha cilalandıqdan sonra müəllif tərəfindən yaşamaq haqqı verilənlərdir.

Müəllif bu kitabda da vətən, torpaq eşqi ilə dolu şeirlərə xüsusi yer verib. “Bir ana layla oxuyur”, “Xocalıda ruhlar gəzir”, “Səhər yenə görüşərik” və başqa şeirləri bu qəbildəndir.

Sevinc xanım bu kitabında da dilimizin gözəlliklərinə sadiq qalıb, bu gözəlliyi sətir-sətir qoruyaraq gözəl şeir nümunələri yarada bilib.

*Bu dilin qiymətini, dəyərini yaxşı bil!*
*Onu qorumaq məgər, sənin də borcun deyil?*
*Layiq olduğu haqqı vermirsənsə dilinə,*
*Çəkil, yol ver dilini doğru-dürüst bilənə.*

***(“Yol ver”)***

Yaxud bir şeirdə deyir:

*...Bu dil sənin dilindir,*
*gözəl anam, ay anam.*
*Bu dilə sənin kimi*
*elə mən də heyranam...*

“Bu sevdanın dili alov” şeirində daha səmimiyyətlə bu sevgi qələmə alınıb:

*Uşaq ikən sevə-sevə ipə muncuq düzərdim.*
*Böyüdükcə SÖZü sevdim – misraya söz düzüldü.*
*Məndən olsa bu sevdadan əllərimi üzərdim*
*– Əllərimdə deyildi ki... ürəyimə süzüldü.*

Kitabda “ Biri vardı, biri yoxdu...” poeması da yer alıb. Bu poema müəllifin bu janrdakı ilk əsəri olmasına baxmayaraq çox uğurlu alınıb. Müasir gəncliyin hiss və duyğuları klassik üslubda çox məharətlə oxucuya çatdırılıb.

Sevinc xanımın bu kitabında da Təbiət mövzuları az deyil. Belə şeirlər çox axıcı, yığcam fikirlidir, ona görə də hansısa bir misranı, bəndi ayırıb, ayrıca vermək olmur, şeir bütöv halda qavranılır. “Baharım”, “Bu bahar”, “Səhər”, “Payızda” şeirləri buna gözəl nümunədir. Şair “İlk və son” şeirində yazır:

*...Bildiyim bu-ey mənə ilk misranı Yazdıran,*
*Sonuncu misranı da özün yazdıracaqsan.*
*Bildiyim bir şey də var – bilməyəcəm mən onu,*
*O sonuncu şeirin sonuncu olduğunu...*

Çox gözəl fikir, gözəl duyğudur!

Yəqin ki, Sevinc xanım oxucuları çox intizarda qoymayacaq, tezliklə növbəti kitabları da işıq üzü görəcək.

***Fərman MURADOĞLU***



# MƏN ONLARI TANIYIRAM

# ƏKİZLƏR

Köhnə bir albomda köhnə bir şəkil,
Saralıb soluxmuş, yanları qopuq…
Nələr danışardı, əgər açsa dil,
Nələri söylərdi bu *"cansız", "donuq"*...
Deyərdi: -Bir əsgər ailəsinin
uzaq illərinin bir anıyam mən.
Həm də tək deyildim, əkizim vardı…
onu müharibə ayırdı məndən.
Bir səhər ayılıb əsgər qızları
xeyli danışdılar, ölçüb-biçdilər.
Əkizimlə məni yanaşı qoyub,
onu bəyəndilər, onu seçdilər.
"Səni gözləyirik, əziz atamız,
tez qayıt!!!" – sözlərin yazaraq onlar,
Məktubla birlikdə əkizimi də
o uzaq cəbhəyə yola saldılar.
Qızlarla yaşadım mən intizarı –
Onlar da gözlədi, mən də gözlədim…
Günlər aya döndü, aylar da ilə,
Nə əsgər qayıtdı… nə də əkizim…

# YARƏB, NECƏ GÖRÜNÜR?..

Yarəb, necə görünür göydən yerdə olanlar,
Qovhaqovlu küçələr, vurhavurlu dalanlar?..
De, gəlirmi qoxusu haqsız axan qanların?
Duyulurmu naləsi, ahı yanan canların?
Hansı rəngdə görünür yurdsuzların gecəsi –
Neçəsi ulduzludur, ulduzsuzdur neçəsi?
Açılan yolmu çoxdur, bağlanan bənd-bərəmi?
Yusif quyusu dərin, məzlum düşən dərəmi?
Yarəb, necə görünür göydən yerdə olanlar,
*"Yalan"* adlı doğrular, *"doğru"* adlı yalanlar?..

# 20 YANVAR

Tarixdir daşlarda 20 yanvar…
Nədir yaddaşlarda 20 Yanvar? –
Qapqara gecədən sıyrılan səhər,
"Azadlıq!", – deyərək hayqıran şəhər…
Adsız vəhşətlərə boylanan səhər,
Günahsız qanlara boyanan şəhər…
Şəhidlərə ağı söyləyən səhər,
Sinəsi acıdan göynəyən şəhər…
Hüznündən şəfəqi qəhr olan səhər,
Qərənfil selinə qərq olan şəhər…
Nurlu səhərlərə yol açan səhər,
Azad sabahlara qol açan şəhər!